# Mir Mövsün Nəvvabın əsərlərində tərbiyəvi fikirlər

**Gulbəniz Vaqif qızı Sultanova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Bakı Qızlar Universiteti*
**E-mail:** gulbaniz.sultanova@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d., dos.Y.A. Allahverdiyev

**Açar sözlər:** tərbiyə, hikmət, gənc, həyat, məsləhət, dil
**Ключевые слова:** воспитание, мудрость, молодежь, жизнь, совет, язык
**Key words:** upbringing, windom, youth, life, advice, language

Mir Möhsün Hacı Mirəhməd oğlu Nəvvab Qarabaği 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdur. O, ilk təhsilini Şuşada Molla Abbasın mədrəsəsində almış, orada ərəb, fars və türk dillərini mükəmməl öyrənmiş, sonralar rus dilini də mənimsəmişdir.

Azərbaycan mədəniyyəti, ədəbiyyatı, məktəb və pedaqoji fikir tarixində özünəməxsus yer tutan Nəvvab şəxsi mütaliəsi sayəsində dövrünün bir çox elm sahələrini dərindən mənimsəmiş görkəmli alim, rəssam, musiqi nəzəriyyəçisi, tarixçi, xəttat, şair, ədəbiyyatşünas, astronom, riyaziyyatçı, kimyaçı kimi tanınmışdır. M.M. Nəvvab daim Şuşada yaşamasına baxmayaraq, dünya hadisələri, xalqların iqtisadi və mədəni tərəqqisi ilə maraqlanmış, xalqının bu günü və gələcəyi ilə bağlı narahatlıq keçirmişdir. O, Şuşada kütləvi kitabxana və qiraətxana təşkil etmişdir. O, abunə və dostluq əlaqələri vasitəsi ilə Şuşaya, Əkinçi, “Ziyayi-Qafqaziyyə”, “Kəşkül”, “Əxtər” və başqa qəzetləri gətirdir, bir çox qəzetlərdə Qarabağ üzrə xüsusi müxbir kimi məqalə və xəbərlər çap etdirirdi.

M.M.Nəvvab Şuşada şəxsi mətbə yaratmaqla maarifçilik ideyalarının geniş yayılmasına şərait yaratmışdır.

M.M.Nəvvab 20-dən artıq kitab, o cümlədən “Kifayət ül-əffar”, “Təzkireyi-Nəvvab”, “Nəsihətnamə”, “Dar elm-musiqi və Vüzühül Ərqəm” (Musiqi elmində rəqəmlərin aydınlaşdırılması) və başqa digər əsərlər yazmışdır.

M.M.Nəvvab 1919-cu ildə vəfat etmişdir.

M.M.Nəvvab elmlərə, elmlərin öyrənilməsinə böyük əhəmiyyət verərək deyirdi ki, mal və əmlakdansa, elm və hünərdən yadigar qoymaq lazımdır. O yazırdı: “Cəmi millətlər qəribə olan elmlər və əcaba olan sənətlər ixtira etməklə tərəqqi tapıb özlərini məgəm-rüfətə yetiriblər. Amma bizim millətimiz o elmlər ki, onların əlindədir, bitamam tərk etməklə mədəniyyət aləmindən uzaqlaşıb və millətlərdən geri qalıblar”. Buna görə də Nəvvab qədri-qüvvə açdığı “Qovhəriyyə” məktəbində uşaqlara dünyəvi elmlərdən məlumat verirdi.

O, astronomiya, riyaziyyat, coğrafiya, kimya və başqa elmlərlə məşğul olur. Əldə etdiyi bilikləri şagirdlərə öyrətməyə çalışırdı. Nəvvab Səma cisimlərinin yerləşməsi, günəş sisteminin hərəkəti, günəşin batması və s. məsələlərə öz münasibətini bildirir, özü düzəltdiyi teleskopla planetləri, ulduzları müşahidə edir və onların bəzilərinin modelini də düzəldirdi. Onun “Kifayət ül ətfal” adlı ensiklopedik əsəri uşaqlar üçün astronomiya dərsliyi kimi nəzərdə tutulmuşdur.

Nəvvab “Nəsihətnamə” əsərində insan mənəviyyatına daxil olan bütün keyfiyyətləri verərək göstərirdi ki, əxlaq tərbiyəsində insaf, ədalət və vicdan xüsusi yer tutur. O, insafı ən ülvi

əxlaqi sifət hesab edir və deyirdi ki, insaflı olmadan əxlaqca təkmilləşmək olmaz.

İnsaf insan ləyaqətini saflaşdıran yeganə əxlaq normasıdır ki, bunun da əsası ailədə qoyulur. Nəvvaba görə, insaf saysız-hesabsız əxlaqi hərəkət və davranışlar silsiləsində bir növ ipdir. Kim bu ipi itirsə, o, bu yoldan kənara çıxar, əxlaqsızlığa doğru yuvarlanar, əksinə kim ki, bu insaf ipindən möhkəm tutarsa, o həmişə əxlaqını saflaşdırar. Məhz buna görə Nəvvab təkidlə tələb edirdi ki, insaf ipini əldən buraxma ki, insaf sifətlərin gözəlidir.

M.M.Nəvvab ədalətlə insafı tam vəhdətdə izah edirdi. İnsaflı hərəkət elə ədalətli hərəkət deməkdir. Nəvvaba görə, ədalət insanın ömür şüarı olmalı, onun bütün hərəkət və davranışına istiqamət verməlidir. Ədalətlilik insan mərifətinin ölçüsüdür.

M.M.Nəvvab "Pəndnamə və yaxud 500 faydalı nəsihət" adlı əsərində əxlaqi keyfiyyətləri sistemləşdirməyə, bir növ əxlaqi kodeks yaratmağa cəhd etmişdir. O, mənəvi sifətlərə bir tam kimi baxır və belə hesab edirdi ki, insan müsbət əxlaqi sifətlərin hamısına malik olmalıdır. O, müsbət mənəvi keyfiyyətləri fitri hesab etməyərək onların tərbiyə vasitəsi ilə aşılandığını bildirirdi.

M.M.Nəvvab "Nəsihətnamə" əsərində valideynin vəzifəsini mühüm pedaqoji iş kimi qiymətləndirmişdir. M.M.Nəvvab valideynin övlad qarşısındakı vəzifələrindən danışarkən övlada sənət öyrətməklə yanaşı ananın öz övladı ilə evdə rəftar qaydalarından, qızını ərə vermək yollarından və başqa ailə övlad tərbiyəsindən bəhs etmişdir.

Nəvvab həmçinin öz "nəsihətnamə"sində ataya valideynlik vəzifələri haqqında aşağıdakı tövsiyələri öyrədirdi:

"Öz oğulların və övladların ilə məhəbbətlə dolan və lazım olan vaxt lütfünü və iltifatını müzaigə etmə. Öz uşaqlarına elm və sənətkarlıq öyrət ki, lazım və hünərdir, hərçənd böyüklərdən olasan".

M.M.Nəvvaba görə, ən gözəl, ən ülvi əxlaqi keyfiyyət insanı sevməkdir. Bu sevginin əsasını məhəbbət təşkil edir. "Nəsihətnamə"sində ata-anaya hörməti ən böyük var dövlətlə müqayisə edərək deyirdi ki, böyük dövlət ata-ananın ehtiramını saxlamaqdır. O, başqalarına yaxınlıq etməyi, xalqın rifahının naminə çalışmağı, vətənin tərəqqisinə xidməti ən müsbət əxlaqı keyfiyyət kimi qiymətləndirirdi. Heç kəsin yaxşılığını itirmək olmaz. Onun nəsihətlərində yaxşılıq, vətən və xalq qeydinə qalmaq mühüm yer tutur. O, adamlara deyirdi ki, əgər qüdrətin olsa, malını millətə fəda eylə, fitnə qapısını bağla, vətənin abadlığına çalış. Xalqa yaxşılıq edərək heç vaxt minnət qoyma. Nə qədər qüdrətin var hər bir dilə aşina ol, müxalifət eyləmə, adamlar arasında məhəbbət və dostluq yarat.

Nəvvabın fikrincə, insanlar bir-biri ilə ədavət etməməli, bir-birinə zülm, əzab, işgəncə verməməli, hər bir işi sülh yolu ilə həll etməlidirlər. O, insanlar arasında kini, ədavəti aradan qaldırmağı tələb edir və deyirdi ki, doğru sözlər danışanda nifaq əmələ gəlirsə onları danışmamaq lazımdır.

Nəvvabın nəsihətlərinin bir çoxu insanların can sağlığına, hifz səhiyyə qaydalarına həsr edilmişdir. O, "Nəsihətnamə"sində can sağlığından danışarkən gənclik yaşından bədənin sağlamlığını gözləməyi məsləhət bilirdi.

Nəvvab deyirdi: "Bədənin sağlamlığını istəyirsənsə bir neçə şeydən pəhriz et. Birincisi çox yeməkdən və ağır xörəkdən, ikinci nahardan sonra yatmadan, üçüncüsü gecə durub su içməkdən, dördüncüsü çox şəhvətdən, beşincisi çox tox olan vaxt hamama getməkdən, altıncısı zökəm olanda şirin, duzlu, acı və yağlı xörəklər yeməkdən".

"Şərxoşluğu, tiryək çəkməyi, qumarı kəskin tənqid edir və deyirdi ki, heç vaxt tiryəkə, bəngə və şəraba yaxın durma, insanı insaniyyətdən xaric edər, bədəni hərəkətdən saxlar. Qüvveyi-nəfsi bilməz və kəsər, üzünün rəngi təgvir tapar, yavaş danışar, binamus olar, iyindən ya-

nından keçmək olmaz”

Nəvvab göstərirdi ki, şərab içməkdən və onun məclisindən uzaq ol ki, sənin mənliyini alıb, dünyadan edər və şeytan kimi olarsan, bədəninin soltanı olan ağlını itirərsən, saçın ağarıb saman olar, məstliyin ləmliyindən yıxılarsan və ya suya düşərsən, yaxın adamlarla savaşıb, hörmətsiz olarsan.

M.M.Nəvvab insanlar arasında dostluq və yoldaşlığı zəruri mənəvi tələbat kimi qeyd etmişdir. Nəvvaba görə dostluğun mühüm şərti sədaqət və ağıldır. O, hiyləgər, iki üzlü, yaltaq, paxıl, xəyanətkar adamlarla dostluğun son dərəcə təhlükəli olduğunu qeyd edir və belələrindən uzaq olmağı tövsiyə edirdi. Nəvvaba görə, həqiqi dost ömrünün bütün mərhələlərində dosta, dostluğa sadiq qalandır. Nəvvab göstərdi ki, ən böyük dövlət ata və ananın sağlığında hörmətini saxlamaq, öləndən sonra isə onların ruhunu şad etməkdir.

M.M.Nəvvab uşaq və gənclər üçün böyük həyatı əhəmiyyəti olan “Pəndnamə”də 500 nəsihət vermişdir. Həmin nəsihətlərdən bu günkü həyat üçün zəruri olanlardan bir qismini veririk.

* sənə tərbiyə verən valideyninin qədrini bil və onu unutma

* həmişə yaxşı adamlarla oturub dur ki, özündə yaxşı adam olasan.

* bilikli ol, qoy xalq sənin biliyindən faydalansın, xeyir görsün, biliksiz olsan, özgələrinin biliyin möhtac olarsan.

* heç kimlə şit və yüngül sözlərlə zarafat etmə, zarafat etsən, hörmətin azalar, nəzərlərdə qiymətsiz olarsan.

* ata və ananla elə rəftar et ki, onu sən öz övladlarından gözləyəsən.

* nə qədər bacarırsan, yaxşılığı heç kəsdən əsirgəmə, bu bir gün karına gəlib fayda verər.

* əgər bir kəs səninlə dalaşsa, sən susmiağınla onu sakitləşdir.

* hamı ilə dostluq et, heç kəslə düşmənlik etmə.

* həyat insan nümunəsidir. Bihəyalığa adət etmə

* çox bil az danış. Heç bir şey bilməyib, uzun danışmaq, azlığın nişanəsidir.

* bir halda ki, məclisdə səni başa düşən yoxdur, danışma

* öz övladına dost və tanış yanında nəsihət etmə və ona acıqlanma.

* özün yüksək vəzifədə olsan da uşaqlarına elm və sənət öyrət, bu nəinki eyib deyil, hətta hünərdir.

* əlində nə qədər dövlətin varsa əvvəlcə öz qızına xərc et, onu bir kəsə gəlin ver, amma bakirə qızı, bakirə oğlana.

* kürəkənin elə adam olsun ki, səninlə fəxr etsin, nəinki sən onunla

* arvad boşanmanı xoşagəlməz bir hal hesab et, belə işin sahibini sevməzlər.

* bir neçə cür adamlardan uzaqlaş. Ara vuruşduran, yalançı, qumarbaz, sərxoş və ümumiyyətlə pis əməllərdən qorxmayıb onu özünə peşə edənlərdən.

* özünə təmiz dost seç, heç bir sərvət həqiqi dostdan qiymətli ola bilməz. Bir sədaqətli dost min vəfasız tanışdan yaxşıdır. Təmiz dost odur ki, dostunun rahatlığına çalışıb onun sağlığına şad, kədərinə şərik ola.

* yemək-içmək vaxtında ədəbli ol, ağzını yediyin xörək qabının üstünə tutma, yeməyinin artığının kənara sıçramaması üçün hər bir dəm əlini silkələmə, ağzını marçıldatma, nəfəsini heyvan kimi çəkmə.

* yeməkdən qabaq əlini, yeməkdən sonra əlini və ağzını yumaq lazımdır.

* yeməkdən sonra nemətə şükür etmək gərəkdir.

* evi, həyəti həmişə təmiz saxlamaq lazımdır.

* bədənini təmiz saxla, köhnə də olsa, libasını geyməzdən əvvəl səliqəyə sal.

* camaat yanında ağzını ədəbsizcəsinə açıb əsnəmə, əlacsız qalsan əlini ağzının qabağına

tut, burnunu, qulağını qurdalama.

* övladına elm və ədəbi uşaqlıqdan öyrət, qayda-qanunları ona təlim et.

* özünü və arvad-uşağını camaatın yanında tərifləmə.

* övladların və qardaşların arasında razılıq və həmfikirlilik olmasa heç bir işdən xeyir götürmək olmaz

* evlənməkdə gecikmə, o, sənin nəfsini pis yerlərə getməkdən saxlayar, adın təmiz qalar.

* evlənərkən halal süd əmmiş bakirə qız al, anasının xasiyyətini də unutma.

* üç cür övrətdən uzaq ol: birincisi dul, ikincisi varlı olub, sənə minnət qoyan, üçüncüsü o qadın ki, səni görəndə ahu-nalə edib, nazik səslə sızıldaya.

* yalan söz deməyə adət etmə, günahlar yalandan başlayır.

* salamlaşarkən qabaqca sən salam ver və danışan vaxt səlist danış

* hər yerdə yaxşılıq toxumu ək, bu həm sənə, həm də övladlarına xeyir verər.

* işlərin pisi yalan danışmaq və riyakarlıq

* hər işdə öz səviyyəni tanı və dairədən kənara ayağını qoyma

**Məqalənin aktuallığı.** Həyatın ilk pilləsinə qədəm qoymuş böyüməkdə olan gənc nəslin milli dəyərlərə, islam əxlaqına biganə qalmamağa, əxlaq müstəvisində davranışlara əməl olunmasında pak mənəviyyat sahibi olmağa onlara köməklik göstərməkdir.

**Məqalənin elmi yeniliyi.** M.M.Nəvvabın müasir zəmanəmizlə səsləşən və gənclərimizin əxlaq tərbiyəsində mühüm əhəmiyyət kəsb edən seçmə nəsihətlərin verilməsidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ümumtəhsil məktəblərinin şagirdləri, orta ixtisas və ali məktəb tələbələri, magistrantlar və müəllimlərdə istifadə edə bilərlər.

## Ədəbiyyat

1. S.Quliyev. Gəncliyin davranış və nəzarət dəyərləri. Bakı, 1994.
2. M.M.Nəvvab. Nəsihətnamə. Bakı, 1987.
3. S.Quliyev, M.Quliyeva. Gəncliyin tərbiyəsində şagirdlərin məsləhət və vəsiyyətləri. Bakı, 2011.

**Г.В. Султанова**

## Образовательные идеи в произведениях Мир Мовсуна Навваба

## Резюме

В статье описывается жизнь и деятельность видного азербайджанского педагога и ученого М.М.Навваба. Его избранные наставления и советы имеют большое значение в воспитании молодого поколения.

Советы М.М.Навваба посвящены защите и сохранению здоровья людей. Он в своих произведениях советовал беречь здоровье с молоду. Большое значение ученый придавал наукам и их исследованиям. Отмечал, что вместо богатства, лучше было бы оставить в наследство потомкам науку и отвагу.

Так же, он отмечал о значимости в воспитании нравственности человека, считал важным формировать такие качества как милосердие, справедливость и совесть.

**G.V. Sultanova**

## Educational ideas in the works of Mir Movsun Navvab


### Summary

The article describes the life and work of a prominent Azerbaijani teacher and scientist M.M. Navvab. His chosen instructions and advice are of great importance in the education of the young generation.

The advice of M.M. Navvab is dedicated to the protection and preservation of people's health. In his works, he advised to take care of health with the young. The scientist attached great importance to sciences and their research. He noted that instead of wealth, it would be better to leave a legacy to the descendants of science and courage.

He also noted the importance in the education of human morality, considered it important to form such qualities as mercy, justice and conscience.


**Redaksiyaya daxil olub:** 23.10.2020